## “AQRAR VƏ EKOLOGİYA ELMLƏRİ” JURNALI ÜÇÜN MƏQALƏLƏRİN TƏRTİBİ QAYDALARI

Məqalələr aşağıdakı tələblərə cavab verməlidir:

1. Elmi-texniki və elmi-tədqiqat müəssisələrində yerinə yetirilmiş tədqiqatlar əsasında hazırlanmış məqalənin dərc edilməsi üçün aşağıdakı sənədlər təqdim edilməlidir: təşkilatın adından baş redaktorun adına məktub; müəllif(lər) haqqında məlumatlar (soyadı, adı, atasının adı tamlıqla göstərilməklə, iş yeri, elmi dərəcəsi və vəzifəsi, xidməti və ev ünvanları, xidməti və ev telefonları, e-mail), “Məqalə müəllif(lər)inin anketi”.

2. Məqalələr Azərbaycan, rus və ingilis dillərində qəbul edilir.

3. Məqalələrin mətnləri Times New Roman-12 şrifti ilə 1 intervalla yazılmalıdır. Mətnin kənarlarında hər tərəfdən 2 sm boşluq qoyulmalıdır.

4. Elmi məqalə ümumi qəbul olunmuş qaydada tərtib edilir: Giriş, Ədəbiyyat icmalı, Material və metodika, Nəticələr və onların müzakirəsi bölmələri mütləq olmalıdır. Məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq, müəllif(lər)in həmin tədqiqatdan alınan, yığcam şəkildə elmi nəticə və təklifləri aydın göstərilməlidir.

5. Məqalənin mətni Windows mətn redaktorunda (Word) yazılmalıdır. Şəkillər (yüksək keyfiyyətli olmaqla, 300 dpi-dən yuxarı sıxlıqlı), EPS, CDR, BMP, TİFF və yaxud JPEG formatında yerinə yetirilməlidir və ayrıca fayllarla da verilməlidir. Bütün çertyojlar mövcud standartlara uyğun, dəqiq, aydın və səliqəli yerinə yetirilməlidir. Düsturlar ayrıca sətirlərdə aydın şəkildə yazılmalıdır.

6. Cədvəllər böyük həcmli olmamalı, ölçü vahidləri istisna olmaqla, bütün yazılışlar tam yazılmalıdır. Cədvəldə kəmiyyətlərin qiyməti hökmən BS-də verilməlidir.

7. Məqalənin mövzusu ilə bağlı elmi mənbələrə istinadlar (məsələn, [1] və ya [1, 119] kimi işarə edilməlidir) olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı ya istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla, ya da əlifba ardıcıllığı ilə nömrələnməlidir. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

8. Ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və digər etibarlı mənbələrinə üstünlük verilməlidir.

9. Məqalənin hər üç dildə bir-biri ilə eyni olan xülasəsi və açar sözləri verilməli, hər bir xülasədə məqalənin adı, müəllif(lər), onların iş yeri, e-mail ünvanı verilməlidir.

10. Hər bir məqalədə UOT indeksləri göstərilməlidir.

11. Məqalənin həcmi qrafiki materiallar, fotolar, cədvəllər, düsturlar, ədəbiyyat siyahısı və xülasələr də daxil olmaqla 10 səhifədən çox olmamalıdır.

12. Məqalə jurnalın redaksiyasına 1 nüsxə A4 formatlı kağızda çap olunmuş şəkildə, müəlliflər tərəfindən imzalanaraq, elektron variantı (flash kart, CD-də və yaxud e-mail ilə göndərilməklə) ilə birlikdə təqdim edilməlidir.

13. Məqalədə ixtisar edilmiş sözlər birinci dəfə açıq yazılmalıdır.

14. Ədəbiyyat siyahısında aşağıdakılar göstərilməlidir:

a) jurnal məqalələri üçün - müəlliflər, məqalənin adı, jurnalın adı, buraxılış ili, onun nömrəsi (cildi), səhifələr;

b) kitab üçün - müəlliflər, kitabın adı, şəhər, nəşriyyatı, buraxılış ili, səhifə sayı;

c) məcmuə və çapı davam etdirilən nəşrlər üçün - konkret məqalələrin

müəllifləri, məqalənin və jurnalın və ya nəşrin adı, şəhər, nəşriyyatı, ili, buraxılışı, səhifələr;

d) başqa şəkildə nəşrlər üçün - identik biblioqrafik məlumatlar qeyd edilir.

15. Müəlliflərin nəzərinə çatdırılır ki, təqdim edilən məqalələr müvafiq sahə üzrə yüksək ixtisaslı mütəxəssislərə rəyə göndəriləcək, məqalənin çap edilib-edilməməsi haqqında qərar həmin rəy(lər)in nəticələrindən asılı olaraq redaksiya heyəti tərəfindən qəbul ediləcəkdir.

Jurnalın redaksiya heyəti ilə əlaqə saxlamaq üçün koordinatlar:

**Ünvan: İstiqlaliyyət küç. 30, AMEA Rəyasət Heyəti, əlaqə nömrəsi/faks +99412 4976941 +99450 3148192, e-mail: agroecosci@gmail.com**